https://doi.org/10.59849/3006-1342.2024.1.114
UOT 165

*G.F.Nəzərova*
*Azərbaycan Turizm və Menecment Universiteti*
*Bakı ş., K.Rəhimov küç, 822/23*
*E-mail: gulnar.nazarova.92@mail.ru*
*ORCID: 0000-0002-5870-7397*

# İÇƏRİŞƏHƏRLİLƏRİN MƏİŞƏT HƏYATININ KULTUROLOJİ ASPEKTLƏRİ

*İçərişəhər mədəniyyəti Azərbaycan kulturoloji fikir tarixində önəmli mövqeyə malikdir. Sakinlərin yerli düşüncə tərzinin öyrənilməsi və mühafizə edilməsi müasir dövrümüzün aktual problemləri sırasındadır. Təqdim edilən məqalədə İçərişəhərlilərin məişət həyatı kulturoloji nöqteyi-nəzərdən tədqiq edilir və onun Azərbaycan mədəniyyətində rolundan bəhs olunur.*

*Açar sözlər:* Azərbaycan, İçərişəhərlilər, məişət mədəniyyəti, kulturoloji təhlil

## *Giriş*

İçərişəhər Azərbaycan mədəni irsinin, o cümlədən dünya mədəniyyətinin ən unikal abidələrindən biri hesab olunur. Antik kompleksin hər bir tikilisi, hər bir daşı, hətta qədimi mühiti özündə xalqın keçmiş kulturoloji təfəkkürünü əks etdirir. Bu əsasda İçərişəhərin mədəni tarixinin əhəmiyyət dərəcəsinin dərk edilməsi, onun ciddi şəkildə mühafizə edilməsi və dərindən öyrənilməsi mühüm məsələlərdən biridir.

Ümumiyyətlə, İçərişəhərdə yaşayan sakinlərin milli mədəni görüşləri hazırkı Bakı şəhərinin, o cümlədən Azərbaycan kulturoloji düşüncəsinin formalaşması üçün bünövrə olmuşdur. Məqalənin aktuallığı da məhz buna əsaslanır.

Tədqiqatın əsas məqsəd və vəzifələrinə aşağıdakıları aid etmək olar:

- İçərişəhərlilərin məişət mədəniyyətini öyrənmək;
- Sakinlərin həyatında xüsusi yerə malik olan mədəni fəaliyyətlərin kulturoloji nöqteyi-nəzərdən təhlilini vermək;
- Yerli əhalinin milli məişət həyat tərzinin Azərbaycan kulturologiyasında rolunu tədqiq etmək.

İşin tədqiqat dövrü olduqca genişdir və İçərişəhərin yaranmasından bu günə kimi olan zamana nəzər yetirilir. Beləliklə, araşdırma işində həmin dövrə qısa diqqət yetirərək insanların gündəlik məişət həyatı barədə məlumatlar verilir.

Araşdırmanın obyekti İçərişəhərlilərin məişət həyatıdır. Predmeti isə sakinlərin məişət həyatının Azərbaycan mədəniyyətində rolunu izah etməkdir.

Tədqiqat aparan zaman əsas mənbə kimi elmi və ədəbi kitab, konfrans materialı və internet resursu kimi ədəbiyyatlara istinad edilmişdir.

Məqalənin əhəmiyyəti isə ondan ibarətdir ki, İçərişəhərlilərin gündəlik məişət həyatı, milli adət-ənənələri, kulturoloji təfəkkür tərzi barədə tədqiqat aparan araşdırmaçılar üçün əsas məlumat bazalarından biri ola bilər.

## *Əsas hissə*

İçərişəhər Azərbaycan kulturoloji fikir tarixinin inkişaf mərhələlərinə əyani olaraq şahidlik edən antik şəhərlərdən biridir. Ərazidən əldə edilmiş arxeoloji tapıntıların ən qədimləri mezolit, neolit, tunc və dəmir dövrlərinə aiddir ki, bu da onun yaranma tarixinin erkən zamanlara aid olduğunu sübuta yetirir. Ümumilikdə, sahədə aparılan kəşfiyyat işləri nəticəsində məişət qabları, bəzək əşyaları, hərbi sursatlar, sənətkarlıq alətləri, təsərrüfat

obyektləri məlum olmuşdur [1, s. 26; 4, s. 165-242]. Belə ki, İçərişəhərdə aparılmış arxeoloji kəşfiyyat işləri zamanı əldə edilmiş hər bir maddi mədəniyyət nümunəsi şəhərin kulturoloji istiqamətdən təhlil edilməsində xüsusi yer tutur. Bu tapıntılar qədim və orta əsrlərdə İçərişəhərdə kulturoloji fikrin formalaşması barədə bizə ilkin məlumatlar verir. Məhz arxeoloji tapıntılar həmin əsrlərdə İçərişəhərdə sənətkarlığın, incəsənətin və ticarətin inkişafından xəbər verir, yerli əhalinin məişət mədəniyyətinin, habelə yaşayış tərzinin, əmək məşğuliyyətinin, həmçinin əsrlər keçdikcə ərazidə baş vermiş mədəni təkamül prosesinin öyrənilməsində mühüm mövqeyə malikdir.

Eyni zamanda, kiçik ölçüyə malik olan şəhər tərkibindəki tarixi-memarlıq abidələri ilə birlikdə özünəməxsus quruluşu ilə seçilir. Struktur cəhətdən yerli əhalinin yaşayışı üçün lazımlı olan bir çox tikili mövcuddur:

- ✓ saraylar;
- ✓ yaşayış binaları;
- ✓ hamamlar;
- ✓ karvansaraylar;
- ✓ məscidlər;
- ✓ türbələr;
- ✓ təhkiyələr və s.

Məhz bunların hər biri İçərişəhər sakinlərinin məişət həyatının rəngarəng olduğunu ifadə edir.

İçərişəhərlilərin həyatında adət-ənənələrin, əyləncəvi xarakterli fəaliyyətlərin, milli bayramların önəmi böyük olmuşdur.

Orta əsrlərdə “zorxana” adlı oyun sakinlər arasında çox məşhur olmuşdur. İdman oyunu adətən Buxara və Multani karvansaraylarının ortasında, Qız qalasının yaxınlığındakı zirzəmidə təşkil edilirdi. Bu oyunun əsas məqsədi gənclərin xoş vaxt keçirməsi, həmçinin öz hünərlərini nümayiş etdirməsi idi. Həmin yerdə igidlər ağırlıq qaldırma və güləş tipli yarışmalarda iştirak edirdilər. Hətta bəzən idman oyunlarını kamança, nağara və zurna ifaçılarından ibarət qrup müşayiət edirdi.

Eyni zamanda, sakinlərin mədəni həyatında heyvan döyüşdürmək, şeir məsclisi təşkil etmək, muğam axşamları düzəltmək, göyərçin bəsləmək və bu kimi maraqlı fəaliyyətlər də daxil idi [5, s. 99-100].

İçərişəhərlilərin həyatında dini ibadətin önəmi böyük olmuşdur. Hətta XX əsrdə qərb mədəniyyətinin şəhərdə yayılmasına rəğmən, sakinlər öz dini ənənələrindən və Şərq kulturoloji düşüncələrindən kənarlaşmamışdılar. Bu barədə fransız yazıçısı Baninin “Qafqaz günləri” adlı əsərində daha aydın təsvir edilmişdir. Əsərdən məlum olur ki, İçərişəhərin küçələrində islam mədəniyyətinin abu-havası duyulur. Yaşayış evlərinin arasında yerləşən məscidlər, minarələrin üstündə azan səsləyərək insanları ibadətə çağıran müəzzinlər həmin mühitin ünsürləri olmuşdur [2, s. 245-247].

İçərişəhərlilərin mətbəx mədəniyyəti müxtəlif idi, qadınlar bir-birindən dadlı təamlar hazırlamağa üstünlük verirdilər. Tutu ağacından riçal, doşab bişirirdilər. Onların mətbəxində fisincan plovu, qutab, əriştə, şorqoğalı, paxlava, çudu, xəmiraşı, şəkərbura, düşbərə kimi yemək və şirniyyatlar çox sevilirdi. Qonaq qarşılamağı xoşlayan sakinlər onlara xüsusi xidmət göstərər və onlar üçün adətən qutab və düşbərə hazırlayardılar.

Maraqlıdır ki, yerli əhali yeməyi əllə yeyərdilər. Bununla bağlı, yazıçı Qurban Səid “Əli və Nino” romanında daha dəqiq təsvir etmişdir: *“Əmim incəliklə üç barmağını yağlı-buğlu plovun içinə saldı, bir az düyü götürdü, yumurlayıb ağzına qoydu...”* [8, s. 14].

İçərişəhər sakinlərin yaşam tərzi sadə və sakit olurdu. Daha çox açıq rəngli geyimlərə üstünlük verirdilər. Ailələrdə bir, iki və üç nəsil birlikdə yaşaya bilirdilər. Qənaətcil insanlar olan içərişəhərlilərdə evə gələn gəlir evin qadınına, anaya və ya qayınanaya verilirdi. Qadına

hörmət ailələrdə xüsusi yer tuturdu. Ailədə başçı isə ata və ya evin kişisi olurdu və onun dedikləri qanun sayılırdı. Ümumiyyətlə, əhali ailə-məişət dəyərlərinə xüsusi diqqət yetirirdilər, bu onlar üçün çox vacib idi.

Qadınlar çox bacarıqlı olurdular. Ev işlərini görməklə yanaşı, müxtəlif əl işləri də yaradırdılar, tikiş və toxuculuq kimi işlərdə də fəaliyyət göstərirdilər.

İçərişəhərlilərdə insanları çağırarkən ləqəblə səslənmək məşhur idi. Adətən, ləqəblər şəxsin peşəsinə və ya xarakterik xüsusiyyətlərinə görə seçilirdi. Məsələn, kar Paşa, papaqçı Novruz, xarrat Ələkbər, qara Baçı, kababçı Məmmədəli, palto Abbasqulu, zərgər İslam, qabırğa Qasım və s. Bundan başqa böyüyə hörmət əlaməti olaraq, adların başlanğıcına əmioğlu, ağa kimi sözlər də əlavə olunurdu [6, s. 15-17; s. 60-64; 5, s. 101].

Yerli əhali Toyuqyeyənlər, Ağşalvarlılar, Bozbaşlılar, Hoppataranlılar kimi müxtəlif tayfa və ya nəsil adları ilə təmsil olunurdular. Ağşalvarlılar dənizçilik peşəsi ilə məşğul olduqlarına, Bozbaşlılar isə saçları erkən boz rəng aldığına görə bu cür adlandırılırdı [3, s. 145].

İçərişəhərlilər adət-ənənələrinə ciddi riayət edir, bayramları xüsusi şənliklə qeyd edərdilər. Xüsusən də, Novruz bayramı sakinlərin sevimlisi idi. Evlərdə səməni göyərdilər, paxlava, şəkərbura, qoğal kimi təamlar bişirilər, yumurtalar boyanar, bayramdan qırx gün əvvəl hər çərşənbə qeyd olunardı. Uşaqlar və gənclər papaq atma, fala baxmaq kimi maraqlı oyunlar oynayar, həyətlərdə tonqallar qalanar və üstündən hoppanardılar.

Ailə qurmağa dair yerli əhalinin bir çox adətləri mövcud idi. Qızın hərisin alınması, böyük nişan, kəbinkəsdi, paltar kəsdi, süd pulu və başqa adətlər bunlardan birdir. Bundan başqa, göbəkkəsdi, şəppə xeyir kimi adətlər var idi.

Dəfn mərasimlərində isə rəhmətə gedən şəxsin üçü, yeddisi, qırxı, cümə axşamı və bir illik mərasimləri keçirildi. İnsanlar qəbiristanlığı ziyarət etdikdən sonra evə geri qayıdanda onlara gilab təqdim edilirdi  [6, s. 65-68; s. 22-26; s. 43].

Hamam Şərq mədəniyyətində çox önəmli yerə malik binalardan biri olmuşdur. Bura insanlar yalnız təmizlənmək üçün deyil, həm də əyləncəli vaxt keçirməkdən ötrü gəlirdilər. Həmçinin, içərişəhərlilər asudə vaxtlarını keyfiyyətli keçirmək üçün hamama üz tuturdular. Bunu 1956-cı ildə çəkilmiş “O olmasın, bu olsun” filmində hamam səhnələrində daha yaxşı görmək mümkündür (şəkil 1).



Şəkil 1. “O olmasın, bu olsun” filmindən hamam fraqmenti [7].

Maraqlıdır ki, qadınlar hamama gələrkən xüsusən bəzənər, gözəl zinət əşyaları taxardılar. Lakin hamamın içinə daxil olarkən həmin bəzək əşyalarını nəbati naxışlarla

bəzədilmiş sandıqçaya qoyaraq çamadara verərdilər. Kişi və qadınlar üçün hamama getmək zamanı fərqli günlərdə təşkil edilirdi. Azyaşlı oğlan uşaqları isə anaları ilə qadın hamamına gələrdilər. Kişi və qadınların hamam üçün hazırladıqları xüsusi boxçaları olurdu ki, onun içində ətir, müşk, ülgüc kimi müxtəlif əşyalar var idi. Digər tərəfdən, hamamlarda keçirilən bəzi adətlər də mövcud idi: qız bəyənmə, xınayaxdı, həftə hamamı və b. [6, s. 18-42; s. 64-65].

Aydın olduğu kimi, içərişəhərlilərin məişət mədəniyyəti həmişə Azərbaycan mədəniyyətinin ayrılmaz hissəsi olmuşdur. Sadə yaşayış tərzləri hazırkı şəhərlilərin həyatını əks etdirmişdir. Onların dini əqidələri, adət-ənənələrə bağlılığı, düşüncə tərzi məhz müasir zamanımıza sirayət olunmuşdur.

## *Nəticə*

Təqdim edilən məqalədən belə bir qənaətə gəlinir ki, İçərişəhərin məişət mədəniyyəti Azərbaycan kulturoloji fikir tarixinin inkişafı üçün vacib bir məsələdir. Onun qorunması, gələcək nəsillərə düzgün çatdırılması, habelə dərindən araşdırılması olduqca önəmlidir. Belə ki, məqalədə yerli əhalinin məişət həyatının kulturoloji-nöqteyi nəzərdən tədqiq edərək ölkənin mədəni düşüncəsində önəmini izah etməyə çalışdıq.

## ƏDƏBİYYAT


1. Aşurbəyli S.B. Bakı şəhərinin tarixi: orta əsrlər dövrü / S.Aşurbəyli. Bakı: Apostrof, Parni iz Baku, 2009. 764 s.
2. Əsədullayeva Ü.M. Qafqaz günləri / Ü.M.Əsədullayeva. Bakı: Qanun, 2019. 335 s.
3. İbrahimov F.K. Bir qalanın tarixi // “İçəri şəhər tarixdə - tarix İçəri şəhərdə” adlı elmi-praktik konfransın məqalələr toplusu”, Bakı: Elm və təhsil, 26 dekabr 2016, 2016, s. 127-172.
4. İbrahimov K.F. İçərişəhər Bakı / K.İbrahimov. Bakı: Çinar-Çap və Ş-Q, 2006. 256 s.
5. İbrahimov K. Qədim Bakı milli irsimizin incisi kimi // Azərbaycan paytaxtları: elmi-praktik konfrans: məqalələr toplusu, Bakı: Elm və təhsil, 2014, s.81-117.
6. Quliyeva N.M. XIX-XX əsrlərdə Bakı şəhər əhalisinin ailə və ailə məişəti / N.M.Quliyeva. Bakı: Elm, 2011. 240 s.
7. O olmasın, bu olsun (1956): [Elektron resurs] / Azərbaycanfilm youtube səhifəsi. Bakı. URL: https://www.youtube.com/watch?v=mZTbGUGk7Rc
8. Səid Q. Əli və Nino: roman / Q.Səid - Bakı: Qanun, 2015. 287 s.


УДК 165

*Г.Ф.Назарова*
*Азербайджанский Университет Туризма и Менеджмента*

## КУЛЬТУРНЫЕ АСПЕКТЫ БЫТОВОЙ ЖИЗНИ НАСЕЛЕНИЯ ИЧЕРИШЕХЕРА
## *РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджан, население Ичеришехера, бытовая культура, культурный анализ

Ичеришехерская культура занимает важное место в истории культурной мысли Азербайджана. Изучение и сохранение местного образа мышления жителей является одной из актуальных задач современности. В представленной статье с культурной

точки зрения изучается бытовой быт жителей Ичеришехара и обсуждается его роль в азербайджанской культуре.

UDC 165

*G.F.Nazarova*
*Azerbaijan Tourism and Management University*

CULTURAL ASPECTS OF THE DOMESTIC LIFE OF THE POPULATION OF ICHERISHEHER
*SUMMARY*

*Key words:* Azerbaijan, *t*he population of Icherisheher, domestic culture, cultural analysis

Icherisheher culture has an important position in the history of cultural thought of Azerbaijan. Studying and preserving the local way of thinking of the inhabitants is one of the urgent problems of our modern times. In the presented article, the domestic life of the people of Icherishehar is studied from a cultural point of view and its role in the culture of Azerbaijan is discussed.

***Daxil oldu: 20.11.2023-cü il***